

# Səhnəmizin Hamleti

**Hamlet Bəbir oğlu Xanızadə 1941-ci il iyun ayının 5-də Bakıda doğulmuşdur. 1965-ci ildə Azərbaycan Dövlət Teatr İnstitutunun dram və kino aktyorluğu fakültəsini bitirmişdir. Son kursda oxuyanda institutda oynadığı maraqlı rollara görə Azərbaycan Milli Dram Teatrının aktyor heyətinə qəbul edilmişdir.**

Mürəkkəb faciə rollarını, ziddiyyətli xarakterə malik romantik-dramatik obrazları ustalıqla yaratmışdır.

1982-ci ildə Azərbaycan Respublikasının əməkdar artisti adına layiq görülmüşdür. 1984-cü ildə Hüseyn Cavidin "İblis" faciəsindəki İblis roluna görə Dövlət mükafatı ilə təltif edilmişdir.

Aktyor iyirmiyə yaxın bədii filmə çəkilmişdir. "Yeddi oğul istərəm", "Babək" və "Arxadan vurulan zərbə" kinolentlərindəki Gizir, Xəlifə Mötəsim və İmaş onun ən maraqlı ekran obrazlarıdır.

Aktyor 1986-cı il may ayının 5-dən etibarən teatrdan Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasına getmişdir.

**Hamlet Xanızadə 23 fevral 1990-cı ildə Bakıda vəfat etmiş və doğma kəndi Şağanda dəfn edilmişdir.**

**S. QULİYEVA**